# NƏRİMANOVA ATILAN DAŞLAR

Hardasan ay Dilavər Əzimli...
Bu tufanla, boranla bir üz-üzə gələrdin..

Nəriman Nərimanovun Ev Muzeyi və Nəriman Nərimanovun kimliyini bilənlə yaxşı bilir ki son nəticədə Nəriman qalib çıxacaq...

İndi stəkanda tufan qoparanlar, ekranda boran qaldıranlar meydanda beş kəlmə deməyə gücü çatmayanlardır.

Tarixçi Firdovsiyyə Əhmədova yazır: "Gerçəklik tam fərqlidir. Hələ Cümhuriyyət dönəmində - 1919-cu ilin dekabrında Azərbaycan parlamentinə teleqramlar daxil olurdu ki, Zəngəzur sarıdan başınız sağ olsun... Yəni erməni-daşnak qüvvələri cümhuriyyətlə bağlanmış 23 noyabr 1919-cu il sazişini pozmuşdular. Zəngəzur əhalisini qanına qəltan eləmişdilər və ərazi daşnakların əlindəydi... Çiçerin Orconikidzeyə yazır



ki, Müsavat hökuməti Şərur-Dərələyəzi Azərbaycanın saymır, amma Nərimanov onları da Azərbaycan torpağı hesab edir. Bax, Nərimanov belə gərgin situasiyada, təkbaşına mübarizə aparıb".

Firdövsiyyə Əhmədovaya və Akif Aşırlıya təşəkkürlər. Siyasi fikir arenası boranlı olsa da mütləq hava açılacaq...

Nərimanovun yenilməz obrazı bütün parlaqlığı ilə çox ayfın görünəcək...

Günəş ağlı qaralı buludları yarmaq gücündədir...

Günəş ki buludları yardı daha yerin üstündə boran nə qədər at oynatsa da yox olacaq...

Bütün boranlar Günəşin önündə gücsüzdür...

...bir məsələni də qeyd edim bəlkə gələcək nəsillərin qabağına çıxdı...

Nərimanovun heykəlini götürməyi təklif edənlərin övladları gələcəkdə Heydər Əliyevin də heykəlinə əl uzadacaqlar...

***Əli Rza XƏLƏFLİ,***
***şair-publisist***